# HACIQABUL

№ 10 (669)

19 iyun 2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Milli Qurtuluş Azərbaycanın xilas tarixidir

***Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da xalqın çağırışına səs verərək Bakıya qayıtması Azərbaycanı parçalanmaqdan, dövlətçiliyi məhv olmaqdan, xalqı vətəndaş müharibəsi təhlükəsindən qurtardı***



***70 il imperiya əsarətində yaşamaq məcburiyyətində qalmış Azərbaycan xalqı daim müstəqilliyini bərpa etmək arzusu ilə yaşasa da, obyektiv səbəblərdən bu niyyətini yalnız ötən əsrin sonlarına doğru gerçəkləşdirmək şansı qazandı. Keçmiş ittifaqın süqutu ilə cərəyan edən müəyyən proseslər xalqın öz hüquqları uğrunda mücadiləyə qalxmasına və son nəticədə 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etməsinə imkan yaratdı.***

Xalqımızın 1991-ci ildən 1993-cü ilin iyun ayınadək böyük sarsıntı və fəlakətləri öz taleyində yaşatmaq məcburiyyətində qalması dövlətin özünün gələcəyini sual altında qoymuşdu. Müstəqilliyin ilk illərində xalqın iradəsinə zidd şəkildə iqtidara yiyələnən, dövləıtçilik və siyasi idarəçiliklə bağlı baxışları son dərəcə primitiv olan qaraguruhçu qüvvələr faktiki olaraq Azərbaycanı taleyin ümidinə buraxmışdılar. Üstəlik, hakimiyyət uğrunda mübarizənin qanunsuz silahlı qruplaşmalar səviyyəsində aparılması ölkədəki siyasi, iqtisadi və mənəvi böhranı daha da dərinləşdirir, bədxah xarici qüvvələrin təsiri ilə etnik-milli münasibətlərin qızışdırılmasına, separatizm meyllərinə rəvac verir, vətəndaş müharibəsinə zəmin hazırlayırdı.

Həmin vaxt Azərbaycanı dağılmaqdan, dövlətçiliyi məhv olmaqdan, ölkəni parçalanmaqdan, vətəndaş müharibəsi təhlükəsindən, mənəvi-psixoloji sarsıntıdan qurtarmaq üçün xalq Heydər Əliyevə müraciət etdi. Səbr kasası dolmuş xalq qətiyyətlə onun siyasi hakimiyyətə qayıtmasını tələb edirdi. Xalq yaranmış vəziyyətdən çıxış yolunu zəngin təcrübəyə malik görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin şəxsində görürdü. Naxçıvanda bütün Azərbaycanın müqəddəratı üçün taleyüklü fəaliyyət göstərən Heydər Əliyevin yanına nümayəndələr gedir, teleqramlar göndərilirdi.

Nəhayət ki, ulu öndər xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 9-da Bakıya gəldi. Bundan bir neçə gün sonra -iyunun 15-də isə Heydər Əliyev parlamentdə səslənən təkidli xahişləri, xalqın istəyini nəzərə alaraq o zamanki Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsinə seçildi. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrildi.

Ulu öndər Heydər Əliyevin iyunun 15-də parlamentin sədri seçilməsi böyük siyasətçinin sadəcə hakimiyyətə qayıdışı deyil, eyni zamanda xalqın qurtuluş tarixidir. Bu tarixi qayıdış ilk növbədə Azərbaycanın varlığını, müstəqilliyini, dövlətçiliyini qoruyub saxladı, ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən, düşmən işğalının geniş miqyas almasından xilas etdi. Ulu öndər ilk günlərdən Azərbaycanın perspektiv inkişaf prioritetlərini açıqladı. Demokratik inkişafa doğru sürət götürmüş müstəqil Azərbaycan dövlətini qısa müddət ərzində möhkəmlənən, qüdrətlənən, regionda və dünyada əhəmiyyəti artan sosial-siyasi reallığa çevirdi.

Yeni neft strategiyasının məntiqi nəticəsi kimi "Əsrin müqaviləsi"nin imzalanması, özəlləşdirmə adı altında dövlət əmlakının ayrı-ayrı biznes maqnatlarının əlinə keçməməsinin qarşısının alınması, dövlət aparatının və idarəçiliyinin təkmilləşdirilməsi, milli sahibkarlıq sinfinin formalaşdırılması Heydər Əliyevin xalq qarşısındakı misilsiz xidmətlərinin bariz nümunəsidir.

Ulu öndər ölkədəki ictimai-siyasi sabitliyi və qanunçuluğu bərpa etdikdən sonra ilk milli Konstitusiyanın qəbulu istiqamətində qətiyyətli addımlar atdı. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə inkişaf etmiş ölkələrin mütərəqqi təcrübəsi əsasında 1995-ci ilin 12 noyabrında ilk milli Konstitusiyamız qəbul olundu.

Heydər Əliyev ideyalarını hər sahədə rəhbər tutan, onları praktik cəhətdən gerçəkləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi məqsədyönlü siyasətin əsasında xalqın millimənəvi, mədəni və elmi-intellektual potensialının gücləndirilməsi məqsədi ön planda dayanır.

Son 14 ildə ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən dövlət başçısı İlham Əliyev xalq qarşısında verdiyi bütün vədləri ardıcıl və sistemli şəkildə yerinə yetirir. Bütün bunlar ölkəmizin hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır.

15 iyun-Qurtuluş günü respublikamızın hər yerində olduğu kimi Hacıqabulda da böyük təntənə ilə qeyd edildi. Rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ayrı-ayrı idarə, müəssisə rəhbərləri həmin gün qurtuluşumuzun banisi, ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər. Abidə önünə tər gül dəstələri düzdülər. Həmin gün axşam saatlarında isə rayonumuzun mədəniyyət ustaları hərbi şəhərciyin ərazisindəki istirahət parkında rayon sakinləri qarşısında böyük konsert proqramı ilə çıxış etdilər. Konsert proqramı böyük atəşfəşanlıqla sona çatdı.

***"Hacıqabul"***

## Heydər Əliyev Akademiyasının dərslərinə start verildi

***Rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtavorun müvafiq Sərəncamı ilə Heydər Əliyev Mərkəzində "Heydər Əliyev Akademiyası"nın dərslərinə start verildi. Dərslərə rayonun idarə və təşkilatlarından 60 üzv seçilmiş, dərslər ayda üç dəfə olmaqla doqquz ay ərzində davam etdiriləcək. Dərslər ümummilli liderin irsinin, zəngin dövlətçilik siyasətinin, ölkə başçısı İlham Əliyevin daxili və xarici siyasətinin əsas məqamları, ölkəmizdə gedən abadlıq-quruculuq işlərindən bəhs edəcək. Akademiya 2 bölmə, 6 fənndən ibarətdir.***

Birinci dərsdə çıxış edən RİHB-nın müavini Zeynəb Yunuslu Akademiyanın fəaliyyəti, məqsədi, üzvləri, məruzəçiləri və dərslərin mövzuları haqqında tədbir iştirakçılarını məlumatlandırdı.

Ikinci dərsdə "Dini radikalizmə qarşı mübarizə" mövzusunda çıxış edən rayon İçra Hakimiyyəti Başçısı aparatında dini məsələlər üzrə işin təşkilatçısı Elvin Şıxəliyev dini radikalizm, onun fəsadları və rayonda buna qarşı görülən işlər haqqında məlumat verdi.

Diskussiya şəraitində davam etdirilən dərslərdə müdavimləri maraqlandıran suallar cavablandırıldı, fikir və rəyləri dinlənildi.

# Məktəblərdə "Son zəng" çalındı

***Bu il rayonumuzun 33 ümumtəhsil məktəbindən XI sinif bazasından 470 nəfər, IX sinif bazasından isə 742 nəfər məzun adını almışdır.***





Respublikamızın hər yerində olduğu kimi rayonumuzda da orta məktəblərdə Son zəng mərasimləri xoş anlarla yadda qaldı. Həmin gün rayonumuzun 33 ümumtəhsil orta məktəbində ənənəvi olaraq Son zəng həyəcanı yaşanırdı.

Rayonumuzun ümumtəhsil məktəblərində təhsil alan 10346 şagirdin bu il 1212 nəfəri məzun adını qazanmışdır. Bunlardan 470 nəfəri 11-ci sinif, 742 nəfəri isə 9-cu sinfi bitirən məzunlardır. Məktəblərin rəhbərləri, valideynlər, müəllimlər bu sevinc, bir az da kədər qarışıq anlarda xoş ovqata köklənmişdilər. Unudulmaz günün hərarətinə toplaşanlar arasından mikrofon önünə keçib ürək sözlərini, xoş arzularını söyləyənlər məzunlara ürək dolusu uğurlar arzulayıb, yeni dərs ilində məktəbə gələcək, sinif otaqlarına ilk kövrək addımlarını atacaq birincilərə təbrik və xoş arzularını çatdırdılar. Həzin musiqi sədaları altında meydana daxil olan məzunlar şerlər, mahnılarla onların bayram şənliyinə yığışan görüş iştirakçılarına maraqlı və yaddaqalan bir gün yaşatdılar. Qabaqcıl, təhsildə fərqlənən məzunların və kövrək addımlarla uğur zirvəsinin astanasına irəliləyən birincilərin iştirakı ilə "Son zəng"in cingiltili sədaları ətrafa yayıldı. Bilik açarı birincilərə, "Məzun" kitabçaları isə məzunlara təqdim olundu.

Son zəng mərasimləri rayonumuzun bütün məktəblərində, xüsusilə 1,2,3,4,5,6,8,9,10 saylı məktəblərdə, Navahı, Rəncbər kənd orta məktəblərində xüsusi təntənə ilə qeyd olundu. Mərasimlərdə rayon İcra Hakimiyyətinin, rayon Təhsil Şöbəsinin, rayon mətbuatının nümayəndələri iştirak etmiş, məzunlara və məktəb kollektivlərinə xoş arzularını bildirmişlər.

Qeyd olunmuşdur ki, bu il də məzunlarımız onlara dövlət səviyyəsində göstərilən diqqətə, qayğıya, müasir tələblərə cavab verən təhsil ocaqlarına, ali məktəblərə uğurlu imtahan verməklə, əsl vətəndaş kimi yetişməklə cavab verəcəklər.

Sonra söz musiqiyə, nəğməyə verilmiş, gül-çiçək yağışına bələnmiş məktəblərin geniş həyətində şənlik günün ikinci yarısına kimi davam etmişdir.

***"Hacıqabul"***

# Bilik Fondu maarifləndirici tədbirlər keçirdi



***Ölkədə aparılan ideoloji, sosial və elmi maarifləndirmə işlərinin daha da genişləndirilməsi, müasir Azərbaycan dövlətinin qurucusu olan ulu öndər Heydər Əliyevin banisi olduğu Azərbaycançılıq ideologiyasının və prezident İlham Əliyevin apardığı uğurlu dövlət siyasətinin prioritet istiqamətlərinin mahiyyətinin ölkə ictimaiyyətinə məzmunlu şəkildə çatdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun "İdeoloji, sosial və elmi maarifləndirmə" proqramı üzrə Heydər Əliyev Mərkəzində "İlham Əliyev və dövlət siyasətinin prioritet istiqamətləri", 10 saylı texniki təmayüllü məktəb liseydə isə "Heydər Əliyev və Azərbaycanda dövlət quruculuğu" mövzusunda tədbirlər keçirildi.***

"İlham Əliyev və dövlət siyasətinin prioritet istiqamətləri" mövzusunda mühazirə ilə çıxış edən Bakı Dövlət Universitetinin dosenti Sevinc Əliyeva dövlət siyasətinin başlıca istiqamətləri, ölkə başçısının həyata keçirdiyi daxili və xarici siyasətin əsas məqamları, son illərdə həyata keçirilən islahatlar nəticəsində əldə olunan sosial-iqtisadi tərəqqi və yüksək nailliyyətlər haqqında məlumat verdi.

"Heydər Əliyev və Azərbaycanda dövlət quruculuğu" mövzusunda mühazirə ilə çıxış edən AMEA Fəlsəfə İnstitutunun şöbə müdiri Sakit Hüseynov ümummilli lider Heydər Əliyevin çoxcəhətli fəaliyyəti, dövlət idarəçiliyi sahəsindəki yüksək peşəkarlığı və zəngin təcrübəsi, uğurlu daxili və xarici siyasəti haqqında məlumat verdi.

Hər iki tədbir diskussiya şəraitində davam etdirildi. İştirakçıları maraqlandıran suallar cavablandırıldı, fikir və rəylər dinlənildi.

*Səadət Kərimova*



# Tibb işçiləri peşə bayramlarını qeyd etdilər

***Ölkəmizdə bütün peşə sahələri, o cümlədən tibb işçilərinin əməyi çox qiymətli və şərəflidir.Hər il iyun ayının 17-də tibb işçiləri özlərinin peşə bayramlarını qeyd edirlər.***

Bu il də rayon Uşaq Tibb Mərkəzində düzənlənən tədbirdə Azərbaycan səhiyyəsinin dünya standartlarına uyğun inkişafı, insanların sağlamlığına hesablanmış dövlət proqramları barədə danışıldı. Tədbiri açan MRX-nın baş həkimi Beydulla Qarayev kollektivi peşə bayramları münasibəti ilə təbrik etdi, onların fəaliyyətindən, rayon əhalisinə göstərilən tibb xidmətlərindən söz açdı. Tariximizə, keçmişimizə daim həssaslıqla yanaşan ulu öndər Heydər Əliyevin əlamətdar bir gün olan 17 iyun tarixinin tibb işçilərinin peşə bayramı günü kimi təsis etdiyindən, bu sərəncamın həm də ulu öndərin Azərbaycanda tibb sahəsində çalışan insanlara olan diqqət və qayğısının təzahürü olduğundan danışdı. Bu diqqət və qayğının bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğuladı.



Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin məsul işçisi Elvin Şıxəliyev, YAP rayon təşkilatının sədri Hafiz Bəşirov, rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov, rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanov, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələskərov tibb işçilərini peşə bayramları münasibəti ilə təbrik etdilər. Ölkəmizdə səhiyyənin inkişafına göstərilən dövlət qayğısından, səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsindən, müasir avadanlıqlarla təchizatı istiqamətində görülən işlərdən danışdılar.

Tədbirin sonunda bir qrup tibb işçisinə rayon İcra Hakimiyyətinin, rayon Gənclər və İdman İdarəsinin qiymətli hədiyyələri təqdim olundu, və MRX-nın rəhbərliyinin təşəkkürnaməsi oxundu.

*"Hacıqabul"*

# "Bəla" tamaşasının təqdimatı keçirildi





***Şəhər Mədəniyyət Mərkəzində "Narkomaniyaya yox deyək" devizi altında rayon MKS-nin 19 saylı Qarasu kənd kitabxana filialının müdiri Şamil Azadovun ssenarisi əsasında hazırlanmış "Bəla" tamaşasının təqdimatı oldu. Bir neçə ay ərzində çəkilən əziyyət öz bəhrəsini verdi. Şagirdlərin istedadı üzə çıxdı.***

Tamaşada narkomaniyanın fəsadlarından, sağlam həyat tərzi istiqamətində maarifləndirmənin vacibliyindən bəhs edilirdi.

Tamaşanı şəhər 2, 5, 9 saylı tam orta məktəbinin 10-cu sinif, Qarasu kənd məktəbinin 6-cı sinif şagirdlərindən bir qrupu canlandırdılar. Şagirdlər yüksək peşəkarlıq göstərərək yaratdıqları obrazlarla tamaşaçıların qəlbini riqqətə gətirdilər, həyata baxışını daha da yüksəltdilər.

Alqışlarla başa çatan tamaşanın sonunda Sabirabad regional Mədəniyyət və Turizm İdarəsinin Hacıqabul rayon üzrə nümayəndəsi Elnur Əmiraslanov, rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov, rayon İcra Hakimiyyəti Başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zeynəb Yunuslu çıxış edərək tamaşa haqqında, şagirdlərin tamaşada necə ustalıqla oynadıqları haqqında öz təəssüratlarını xoş sözlərlə ifadə etdilər.

***Elmira İbrahimova,***
***rayon MKS-nin şöbə müdiri***

## *Zəmilərdə taxıl biçilir*

# Bol məhsullu çöllərimiz

***Havaların əlverişsiz keçməsi ilə əlaqədar bu il taxıl biçininə əvvəlki illərə nisbətən bir qədər gec, iyun ayının ilk günlərində başlanmışdır. Torpaq istifadəçiləri Qızılburun, Navahı, Meyniman, Qarasu kəndlərində arpa biçini sahələrində mövcud texnikanın imkanlarından bacarıqla istifadə edərək yetişdirilmiş məhsulu sürətlə və itkisiz toplayırlar. Qızılburunda Abasqulu İsamalıyev 20 hektar sahənin hər hektarından 27,5 sentner, Qarasu kəndində Murad Abdullayev 120 ha zəmidə arpa biçinini aqrotexniki tələblər səviyyəsində apararaq hər hektardan 32,5 sentner məhsul götürməyə nail olmuşdur.***

Meynimanda Natiq Dostəliyev 150 hektara yaxın, Bəylər Cəfərov isə 50 hektar sahədə hər hektardan 35 sentner məhsul əldə edərək arpa biçinini yüksək sürətlə və itkisiz davam etdirirlər.

Zəngin əkinçilik ənənələrinə malik olan qədim Navahı kəndində torpaq istifadəçiləri Ələsgər Tapdiqov, Rauf Etibarov, Hüseynağa İsmayılov, Bəşir Məmmədov, Atabala Atakişiyev hər biri 70 hektara yaxın sahədə arpa biçini apararaq hektardan 28,5 sentner məhsul toplamışlar. Rayonun taxil zənilərində taxıl biçini aparmaq üçün "Aqrolizinq" ASC-nin Hacıqabul rayon şöbəsi tərəfindən 32 kombayn biçinə cəlb olunmuşdur. Bu günə qədər rayon üzrə 2000 hektardan çox sahədə arpa biçini müvəffəqiyyətlə aparılmışdır. Yerlərdə kənd icra nümayəndələri, bələdiyyələr tərəfindən məhsulu vaxtında və itkisiz yığmaq üçün torpaq istifadəçilərinə hər cür kömək və qayğı göstərilir. Rayon icra hakimiyyətinin, rayon kənd təsərrüfatı idarəsinin məsul işçiləri və mütəxəssisləri hər gün biçinin vəziyyəti ilə maraqlanır, qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında torpaq istifadəçilərinə köməklərini əsirgəmirlər.




Padar ərazisində Kürdəmir süd Emalı zavodu MMC tərəfindən 500 hektardan çox sahədə buğda əkilmişdir. Meynimanda Səmədağa Ağayev 15 ha sahənin, Padarda isə Əlifağa Səfərov 20 ha sahənin hər hektarından 35 sentner arpa bişməyə nail olmuşlar. Ələtli, Rəncbər, Qubalıbaloğlan, Navahı qəsəbəsi ərazilərində də arpa biçini aqrotexniki qaydada aparılır.

Taxılçılığın inkişafi, ölkədə ərzaq bolluğunun yaradılması istər ulu öndər Heydər Əliyevin, istərsə də hər sahədə onun işini müvəffəqiyyətlə davam etdirən cənab İlham Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. Rayonumuzun kənd əməkçiləri, taxılçılıqla məşğul olan torpaq istifadəçiləri Prezidentimizin tapşırıq və tövsiyyələrinə uyğun olaraq işlərini günün tələbləri səviyyəsində qurmuş, buğda biçinini də uğurla başa çatdırmaq üçün zəmilərdə hazırlıq işlərini səylə aparırlar. Çox keçməz ki, kombaynların gur səsi buğda zəmilərindən də gələr, mexanizatorlarımız bol məhsulun müjdəsini yaşayarlar.

***Nazim Fətixanoğlu***

**İslam ən son və mükəmməl dindir. O həm dünyəvi həm də axirətə aid mövzularda insanlara ən gözəli, ən yaxşını və ən doğrunu gətirmişdir. Həqiqi mənada İslamı yaşayan fərd və cəmiyyətlər, əsl xoşbəxtlik əldə etmişlər. Çünki məhz islam insanların xoşbəxtliyi üçün lazımi prinsiplər qoymuşdur. Hər mövzuda olduğu kimi "qadın" mözusunda da ən gözəl prinsipləri İslam qoymuşdur. İslama görə, qadın, hər şeydən əvvəl insandır. İnsanməxluqatın ən şərəflisi və ən gözəlidir. İnsan, Allahın lütfü ilə mükəmməl olaraq dünyaya gələn, yaradılanlar içində iradəsi öz ixtiyarına verilən, ağılla bütünləşən ən şərəfli varlıqdır. Aləm insanlar üçün yaradılmışdır. Hər şey insanların xidmətinə verilmişdir.**

# İslamda qadına münasibət

Tarix boyu bəzi yerlərdə qadın əzilmiş, xidmətçi, kölə olaraq qəbul edilmişdir. İslam doğulması ilə utanc kimi qarşılanan qadını yüksəldərək insanlıq mövqeyindən kişi ilə eyni səviyyəyə gətirmişdir.

Müqəddəs kitabımız Qurani-Kərimin bir çox ayələrində kişi və qadına birlikdə xitab edilmişdir. İslam qadını insanlıq baxımından kişi ilə bərabər tutmuşdur.

İslam qadına ən böyük dəyər vermiş və onun namuslu, təmiz, təmkinli və şərəfli bir tərzdə yaşamasını təmin etmişdir. Dinimizə görə qadın şəfqət, mərhəmət, hörmət edilməsi və nəzakət göstərilməsi lazım olan incə varlıqdır.

Cəmiyyət həyatımızın ən mühüm ünsürü qadın, daha doğrusu anadır. Qadın insan nəslinin davamı üçün çox önəmli vəzifələrə sahib olduğu üçün insanlığın əsası, təməli və qaynağı sayılır.

Dinimizdə kişinin qadından mütləq mənada üstün olduğunu bildirən heç bir ayə yoxdur. İslam qadın və kişi arasında ayrı-seçkiliyin olmadığını, doğum, ölüm və daha sonrakı həyatlarında bu iki cinsin bir-birindən üstün bir tərəfi olmadığını bəyan etmişdir. İslam əxlaqına görə insanın qadın və ya kişi olması əsas deyil. Üstünlük ancaq yüksək əxlaqdadır. İnsan olaraq ilahi ədalətdə hər kəs bərabərdir.

XXI əsrdə yaşamağımıza baxmayaraq bir sıra islam ölkələrində - Əfqanstan İraq və Afrikada yerləşən bəzi ölkələrdə qadınlara ikinci sinif insan kimi davranırlar. Bunun səbəbi islam deyil, əksinə İslamın mahiyyətini olduğu kimi qavramayan, buna görə də yanlış hərəkətlər edən müsəlmanlardır.

Çox təəsüfflər olsun ki, bu gün bizim cəmiyyətdə də, qadının ləyaqətini alçaldan, onun şəxsiyyətini ikinci plana keçirən, qızlarımızın ata-anaların mülkiyyətinə çevrilməsi hallarına rast gəlirik. Bunun ən bariz nümunələrindən biri də erkən nikahlardır.

Hələ XIX əsrin sonunda qadın azadlığı, qız-gəlinlərin hüquqları, başörtüyü, qız uşaqlarının təhsildən yayınması və digər məsələləri M.F.Axundzadə, H.B.Zərdabi, C.Məmmədquluzadə, C.Cabbarlı və digər mütəfəkkirlərimiz bədii və publisistik əsərlərində ifşa etmişdilər.

Bu gün həyatdan geri qalan, keçmişləri qaytarmağa çalışan meyillər nədənsə yenidən dirçəlməkdədir. Üstəlik, xoşbəxtlik anlayışını səhv başa düşüb övladlarını vaxtından əvvəl ailə qurmağa vadar edən ata-analar Azərbaycan cəmiyyətinə də əlavə bir problem gətirir, demoqrafiyamıza, genofondumuza zərbə vururlar. Biz sadə bir həqiqəti anlamalıyıq ki, dünya dəyişir, insan daha mürəkkəb sosial varlığa çevrilir, yaşam dəyərləri, şərtləri, baxışları, tələbləri dəyişir.

İslam dini müasir dindir. Biz bu gün keçmiş qalıqlarını həyata keçirməyə çalışan, qızlarımızı təhsildən yayındıran, başıörtülü saxlayıb cəmiyyətdən təcrid edən, az yaşında ailə qurmağa məcbur edən mənəviyyatca xırda və cahil adamların yenidən ortaya çıxmasına imkan verməməliyik.

***Elvin Şıxəliyev,***
***RİHBA-da dini qurumlarla işin təşkilatçısı***

# Hacıqabul-doğma diyarım!

## *Rayon Mədəniyyət və Turizm Şöbəsinin təşkilatçılığı ilə keçirilən ədəbi-bədii gecə məhz belə adlanırdı- Hacıqabul-doğma diyarım!*

***Doğma yurda məhəbbət ruhunda aşılanmış tədbirdə rayonumuzun tarixindən, zəhmətkeş insanlarından, görkəmli ziyalılarından, torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizdən, müstəqillik əldə olunandan sonra qazanılmış nailiyyətlərdən, xüsusilə son 10 il ərzində rayonumuzda gedən abadlıq-quruculuq işlərindən söhbət açıldı. Şəhər 3 saylı tam orta məktəbin tarix müəllimi Mübariz Xəlilov rayonumuzun tarixi abidələri haqqında, rayon Tarix Diyarşünaslıq Muzeyinin direktoru Məhəmməd İsayev torpaqlarımızın ərazi bütövlüyü, Azərbaycanın müstəqilliyi uğrunda şəhid olmuş həmyerlilərimiz, şəhidlərə həsr olunmuş "Hacıqabul şəhidləri" kitabı haqqında, kitabın arayaərsəyə gəlməsində zəhməti olmuş "Hacıqabul" qəzetinin əməkdaşı Nazim Zeynalovun əməyindən, rayon Mərkəzi Kitabxanasının xidmət şöbəsinin müdiri Aytəkin Mirzəyeva "Rayon əhalisinə kitabxana xidmətinin təşkili" mövzusunda tədbir iştirakçılarına məlumat verdilər.***

Tədbirdə şəhər 6 saylı məktəbin şagirdlərinin ifasında həmyerlilərimiz Azərbaycanın mədəni həyatında tanınan şair Miryusif Mirnəsiroğlunun, Əjdər Olun, Zivər Ağayevanın, Xeybər İgidəliyevin, İmamverdi Nəhmədovun, Sabir Almazovun şerlərini və şözlərinə bəstələnmiş mahnılar ifa olundu. Rayon Ağsaqqallar Şurasının sədri Abdulla Zülfüqarov şair Miryusif Mirnəsiroğlunun "Vətən yaxşıdır" şerini, "Hacıqabul" qəzetinin əməkdaşı Nazim Zeynalov isə Əjdər Olun "Ömür" şeirini söyləyərkən zalda gurultulu alqışlarla qarşılandılar. Həmçinin həmyerlimiz bəstəkar xanım Elza İbrahimovanın mahnıları rayonumuzun mədəniyyət və incəsənət ustalarının ifasında alqışlarla qarşılandı.

***Nazim Fətixanoğlu***

# Ömrümüzün bəzəyi, tələbəlik illəri!

***9 saylı tam orta məktəb rayonumuzun ən müasir, yaraşıqlı, müasir standartlara cavab verən təhsil ocaqlarından biridir. 10 il bundan əvvəl zəngin fənn kabinetləri, geniş işıqlı sinif otaqları olan müasir üslubda inşa olunmuş məktəb ölkə başçısının təhsilə göstərdiyi qayğının bariz nümunəsidir. Iyunun 14-də məzunların növbəti buraxılışı münasibətilə məktəbdə Son zəng tədbiri keçirildi.***

"Tələbəlik illəri" mahnısının həzin melodiyası ilə məktəbin geniş həyətinə daxil olan məzunları mərasim iştirakçıları alqışlarla qarşıladı.Tədbiri açan məktəbin təşkilatçı müəllimi Afət Piriyeva məzunları təbrik etdi, onlara gələcək həyat yollarında uğurlar arzuladı. Xatirələrlə dolu məktəb həyatına əlvida deyən məzunlara üzünü tutaraq qeyd etdi ki, bu gün siz hər dəfə vurulmasını həsrətlə gözlədiyiniz zəngin çalınmasını heç biriniz istəmirsiniz. Istəmirsiniz yollarınız ayrılsın. Bu gün sizi bir araya gətirən son gündür. Bununla da bitir şirin xatirələr, qayğısız günlər. Harada olursunuz olun, valideynlərinizin, müəllimlərinizin adını uca tutun.

Söz məktəbin direktoru Elbrus Əliyevə verildi. O, məzunları təbrik etdi, onlara həyat yollarında uğurlar, sevincli, fərəhli günlər arzuladı. Rayon İcra Hakimiyyətinin məsul işçisi İmaməddin İmanov, Mərkəzi rayon Xəstəxanasının baş həkimi Beydulla Qarayev, "Hacıqabul" qəzetinin əməkdaşı Nazim Fətixanoğlu, rayon Təhsil Şöbəsinin müdir müavini Balaxanım Ələsgərova məktəbin müəllimlərini, şagirdləri, on birinciləri son zəng münasibətilə səmimi qəlbdən təbrik etdilər, onlara həyatda xoşbəxtlik, daim uğurlar qazanmağı arzu etdilər. Çıxış edənlər vuğuladılar ki, bu günlər ölkəmizin hər yerində Milli Qurtuluş günü qeyd olunur. Biz bu günkü xoşbəxt günlərimiz, ölkədə sabitliyin, sakitliyin bərqərar olunması üçün ulu öndərimiz Heydər Əliyevə həmişə minnətdar olmalıyıq. 9 saylı məktəbin direktor müavini Svetlana Paşayeva, məktəbin müəllimləri Xanım İsmayılova, Sənəm Məmmədova çıxış edərək bildirdilər ki, son zəngin zərif və kövrək sədaları hələ uzun müddət yaddaşlardan, qəlblərdən silinməyəcək, I sinif şagirdləri də on birinciləri təbrik etdilər. Sonra məzunlara məzun kitabçaları təqdim olundu.

Nəhayət, son zəngin cingiltili sədaları ətrafa yayıldı, valideynlərin, müəllimlərin alqışları altında on birincilər şən rəqslər etdilər.

***Nazim Fətixanoğlu***

# Əlifba bütün elmlərin açarıdır



***Əlifba bütün elmlərin açarı və insanları elmə aparan yoldur. Elə biliklərimizin bünövrəsi də məhz əlifbadan başlanır. "Əlifba bayramı" hər bir uşağın həyatında əlamətdar bir hadisədir. Ona görə də ənənəvi olaraq birincilər əlifbanı başa çatdıran kimi bunu xüsusi bir bayram kimi qeyd edirlər. Növbəti hesabat xarakterli görüş Səxavət Rüstəmov adına şəhər 7 saylı tam orta məktəbdə keçirildi. Böyük sevinclə, bəslədiyi ümidlərlə, qurduğu xəyallarla, ürəyində baş qaldıran arzularla övladının əlindən tutub məktəblərdə ilk zəngi səbirsizliklə gözləyən valideynlər, indi həmin körpə balaların əziz bayramına yığışıblar. Böyük həyəcanla övladının özünü necə aparacağını, necə çıxış edəcəyini gözləyirlər. Budur, birincilər, hərflərlə, rəqəmlərlə, dərsliklərlə "silahlanmış" şəkildə əllərində dövlətimizin üçrəngli bayrağı, döşlərində "Əlifba" yazılmış lentlərlə, inamlı addımlarla bayram iştirakçılarının qarşısına çıxırlar. Birincilər böyük inam və sevinclə müəllim və valideynləri qarşısında çıxış etdilər. "Can nənə bir nağıl de", "Ana dilim", "İncinin kitablarla söhbəti", "Bir qalanın sirri", "Tıq-tıq xanım", "Turpun nağılı" səhnəcikləri, Vətənə, anaya, müəllimə aid şeirləri valideynlər və müəllimlərin xüsusi marağına səbəb oldu. Şeir deyib mahnı oxumaqdan bir an belə yorulmayan balaca Qəndab, Ruhid, Safina, Səma, Səkinə və Həsənin səhnəciklərdə yaratdıqları rollar tamaşaçılarda xoş əhval-ruhiyyə yaratdı. Birincilərin verdiyi bu hesabat tədbirində bir daha sübut olundu ki, Vətənin gələcəyi etibarlı əllərdədir.***

Şagirdlər eyni zamanda simvolik olaraq "Ana dili" sözünü yaradan hərflərə və "0"-dan "10"-a qədər olan rəqəmlərə aid şeirlər söylədilər.

Tədbirdə çıxış edən məktəbin direktoru Zemfira Ələkbora birinciləri uğurlu çıxışlarına görə təbrik edərək bildirdi ki, şagirdlər ilk dəfə sinif otağına daxil olanda, kimisi ağlayır, kimisi qorxur, kimisi də evlərinə getmək istəyirdi. Amma bu gün şagirdlər bir neçə ay ərzində öyrəndikləri bilik və bacarıqlarını yaşlarına uyğun olaraq çox möhtəşəm şəkildə nümayiş etdirdilər. Bir daha birinciləri "Əlifba bayramı" münasibəti ilə təbrik edən məktəbin direktoru onlara gələcək təhsillərində uğurlar arzuladı.

***Səadət Kərimova***

# Elin sərvətini yanğından qoruyun!

## *TAXIL YIĞIMI ZAMANI YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ*

***Bu gün taxıl tədarükü iqtisadiyyatımızın ən önəmli sahələrindəndir. Təsadüfi deyildir ki, son dövrlər taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçısı, hökumət tərəfindən mühüm qərarlar qəbul edilmişdir.***

Taxıl tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində bu strateji əhəmiyyətli məhsulun yanğın təhlükəsizliyi daima diqqət mərkəzində olmalı, yanğın təhlükəsizliyi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilməlidir.

Birinci növbədə qeyd edilməlidir ki, kənd təsərrüfatı məhsullarının oddan qorunması tək yanğından mühafizə orqanları əməkdaşlarının işi deyil, həm də aqrar sahədə, o cümlədən fermer təsərrüfatında çalışan bütün əməkçilərin, təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin və s. ümdə vəzifəsi olmalıdır.

Xüsusi olaraq qeyd edək ki, mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Həmçinin ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı işçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

Taxıl və ot yığımına başlamazdan əvvəl mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir şəxs kənd təsərrüfatı texnikasını yanğına qarşı hazırlamalı, ilkin odsöndürmə vasitəsi ilə tam təmin etməlidirlər.

Məhsul yığımında iştirak edən texnikanın hamısı işə başlamazdan əvvəl yanğına qarşı texniki müayinədən keçirilməli, onların yanğın təhlükəsizliyi tələblərinə cavab verməleri barədə akt tərtib edildikdən sonra sahəyə buraxılmalıdır.

Məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcım söndürənlərlə təmin edilməlidir. Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda şum traktorları mütləq qığılcımsöndürənlərlə təmin edilməlidir.

Mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədi ilə örtüksüz (kapotsuz) və ya örtüyü (kapotu) açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir.

Mühərriki akkumlyatorla işə salınan kombayn, traktor və özü hərəkət edən kənd təsərrüfatı texnikalarının akkumlyatorları işlədicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtünmədən və mexaniki zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və yaxud plasmas borularla mühafizə olunmalıdır.

(davamı səh. 4-də)

# HACIQABUL

№ 10 (669) 19 iyun 2017-ci il

# Uşaqların nağıl dünyası



*2016-2017-ci tədris ili ərzində şəhər 9 saylı tam orta məktəbdə müxtəlif tədbirlər keçirilmişdir. Şagirdlər bu tədbirlərə cəlb olunmuş və həvəslə iştirak etmişlər. Belə tədbirlərdən biri də "Uşaqların nağıl dünyası" adlı ingilis dili gecəsi idi. Tədbirdə təhsil müəssisəsinin kollektivi və valideynlər iştirak edirdilər.*

1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü ilə bağlı hazırlanmış tədbir nağıl əsasında qurulmuş və ssenarisi ingilis dilində səhnələşdirilmiş bir-birini müşayiəti ilə davam etmişdir. Şagirdlər "Qoğalın nağılı", "Qırmızıpapaq", "Şəngülüm, Şüngülüm və Məngülümün nağılı" kimi heç vaxt unudulmayan və hər zaman körpələrin sevimlisi olan nağılları ingilis dilində məharətlə səhnələşdirmişlər. Uşaqların nümayiş etdirdikləri mahnılar, rəqslər və səhnəciklər tədbir iştirakçılarında xoş əhval-ruhiyyə yaratdı.



Sonra məktəbin direktoru Elbrus Əliyev, dərs hissə müdiri Svetlana Şirəliyeva, məktəbin təşkilati işlər üzrə direktor müavini Afət Piriyeva çıxış edərək uşaqları bayram münasibəti ilə təbrik etmiş, qeyd etmişlər ki, tarix boyu hər bir dövlət, hər bir cəmiyyət gələcəyi olan uşaqların qayğısına qalmağı, onların fiziki və mənəvi cəhətdən böyüməsini təmin etməyi özünün ən ümdə vəzifələrindən biri hesab edib. Azərbaycan dövləti də bu mühüm məsələyə qayğı ilə yanaşır. Bu gün müstəqil Azərbaycanın uşaqları diqqət və qayğı ilə əhatə olunub.

***Natəvan Səfərova,***
***şəhər 9 saylı tam orta məktəbin ingilis dili müəllimi***

# Elin sərvətini yanğından qoruyun!



*(əvvəli səh. 3-də)*

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar adam tərəfindən işə salınması, onun yedəyə alınmaqla və yüksəklikdən buraxılmaqla işə salınması kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra texnikanın sahələrdə saxlanılması qəti qadağandır. Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra zəruri tədbirlər təxirəsalınmadan həyata keçirilməlidir.

Belə ki, meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr aralıda tayaya vurulmalıdır. Taxıl yetişən zamanı cavabdeh şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədi ilə xüsusi keşikçilər ayrılmalıdır. Biçilmiş ot və taxıl həmin sahədən kənara daşınmalıdır. Taxıl yığımı, ot tədarükü zamanı müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən xırmanlardan və s. yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda yerləşdirilməlidir.

Tarla düşərgələrində, taxıl təmizləmə xırmanlarında, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli, eləcə də üzərində «Siqaret çəkmək yeri» yazılmış lövhə asılmalıdır. Digər sahələrdə siqaret çəkmək, açıq oddan istifadə etmək qəti qadağandır.

Biçin işi aparılan taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların böyük sahələrə yayılmasının qarşısını almaq məqsədi ilə kotanlı traktorlar olmalıdır. Taxıl zəmilərində və onların yanxınlığında küləş yandırılması və tonqal qalanması qəti qadağandır.

Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaq doldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.

Yığım maşınlarının diyircəklərinin və digər sürtülən hissələrinin qızmasının qarşısını almaq məqsədi ilə onların barlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtlı-vaxtında təmizlənməlidir.

Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralıda yerləşdirilməlidir. Xırmanların sahələri bitki örtüyündən (otdan) mütləq təmizlənməli, ətrafı 4 metr enində şumlanmalıdır.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır. Unutmamalıyıq ki, taxıl bərəkətdir, ruzidir və o böyük zəhmət hesabına yetişdirilir.

Elin bu sərvətini yanğından qoruyun!

***FHN-nın Muğan regional Dövlət Yanğın Nəzarəti İdarəsi***



# Gənclər nümayəndəliyi təsis olundu

***Rayon Gənclər və İdman İdarəsi tərəfindən idarə və müəssisələrdə gənclərlə işin gücləndirilməsi məqsədi ilə "Gilan Seramik" MMC-də gənclər nümayəndəliyi təsis olundu.Təsis yığıncağında rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələskərov çıxış edərək qeyd etmişdir ki, hər bir ölkədə müstəqilliyin qorunub saxlanması, dövlətçiliyin möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı yüksək intellektə malik gənc nəslin yetişdirilməsindən, onların cəmiyyət həyatının bütün sferalarında fəal iştirakından birbaşa asılıdır. Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu vardır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ölkə gəncləri ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar.***

Tədbirdə qeyd olundu ki, bu gün ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən gənclərlə birbaşa bağlı olan dövlət proqramları qəbul olunmuşdur ki, onların icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş vermiş və ciddi uğurlar əldə olunmuşdur. Gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində davamlı iş aparılmış, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı artırılmışdır.

"Gilan Seramik"MMC-nin nümayəndəsi Cavid Qəhrəmanov çıxış edərək müasir dövrdə gənclər siyasətinin yeni mərhələyə qədəm qoymasından danışmışdır.

Sonda gənclərin seçimi ilə Qəhrəmanov Cavid Rəcəb oğlu rayon Gənclər və İdman İdarəsinin "Gilan Seramik"MMC-də nümayəndəsi seçilmişdir.

***Xalid Rəcəbli,***
***rayon Gənclər və İdman İdarəsnin Baş məsləhətçisi***

*Faydalı məsləhətlər*

# Çay içməyin faydaları



***Sinqapurun Milli Universitetinin tədqiqatlarına görə, 957 çinli üzərində aparılan araşdırmada, yaddaş itkisi mövzusunda əhəmiyyətli nəticələr əldə edildi. Araşdırmaya görə, hər gün istehlak edilən çay, yaddaş itkisi problemlərini 50% nisbətində azaldarkən, Alzhemier üçün risk qrupundakı yaşlılarda isə bu nisbət 86%-ə qədər çatdı.***

Bu araşdırmada, əldə edilən məlumatların, sadə və bahalı olmayan bir tədbirlə insanın, yaşlılıq dövründə məruz qala biləcəyi problemlərin önünə keçilə biləcəyini müəyyənləşdirə bildirildi.

Tədqiqatda iştirakçıların 2003-2005-ci illərdə istehlak etdikləri çay miqdarı haqqında məlumatları, mütəxəssislərə təqdim edildi.

Araşdırmaçılar daha sonra iştirakçıların yaddaş səviyyələrini 2010-cu ilə qədər iki ildə bir ölçdü.

Bundan əlavə, araşdırma fərdlərinin həyat tərzi, sağlamlıq vəziyyəti, fiziki və ictimai fəaliyyətləri mövzusunda da məlumat toplandı.

## Elan

Hacıqabul rayon Aqrar İslahat Komissiyasının 1997-ci il 04 avqust tarixli qərarı ilə Şahbazov Ələkbər Abbas oğlunun adına verilmiş JN-317, kodu 91007027 olan torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

08.10.2011-ci il tarixdə Məmmədov Alim Gülməmməd oğlunun adına verilmiş 0273300 nömrəli reyestrdən Çıxarış itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

58 saylı Hacıqabul-Kürdəmir DSK-nın sədri Məhəmməd Hacıyev və kollektivi iş yoldaşları Ziya İbrahimova əmisi

**Ramizin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200